BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Sosial-siyasi elmlər seriyası 2008*

# PEDAQOGİKA

## MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR AZƏRBAYCAN MÜTƏFƏKKİRLƏRİNİN YARADICILIĞINDA

**F.A.HƏSƏNOVA, L.N.QASIMOVA**
*Bakı Dövlət Universiteti*

Azərbaycanlılar çox zəngin milli-mənəvi dəyərlərə malik xalqlardandır. Xalqımıza məxsus milli-mənəvi dəyərlərdən islama və onun mədəniyyətinə etiqad və hörməti, xeyirxahlığı, humanistliyi, namusluluğu, ləyaqətliliyi, vicdanlılığı, ədalətliliyi, sədaqətliliyi, qonaqpərvərliyi, mərdliyi, etibarlılığı, ismətliliyi, sözübütövlülüyü, qeyrətliliyi, vətənpərvərliliyi, vətənə, torpağa, elə, yurda, ailəyə bağlılığı, yaşlılara, qadınlara hörmətliliyi, uşağlara qayğıkeşliliyi, əməksevərliliyi və s. göstərmək olar. Bunlar Azərbaycan xalqının adət-ənənələrində, məişətində, mütəfəkkirlərin və aqillərin deyimlərində və yazılarında, məqalə və şifahi xalq yaradıcılığında ehtiva olunmuşlar.

Təqdim olunan yazıda Azərbaycan mütəfəkkirlərindən bəzilərinin xalqımıza məxsus milli-mənəvi dəyərləri barədə fikirlərindən bəhs edilmişdir.

Azərbaycanın görkəmli mütəfəkkirlərindən Nəsirəddin Tusinin «Əxlaqi-Nasiri», Məhəmməd Hadiminin «Berika» və Əli bin Əmrullahın əxlaqa dair ibrətamiz fikirləri mövcuddur. Məhəmməd Hadimi «Berika» kitabında insanları pis əxlaqdan qorunmağa çağırmışdı. O, pis əxlaqı qəlbin xəstəliyi adlandıraraq göstərir ki, pis əxlaq qəlbi və ruhu əbədi ölümə sürükləyir. Kitabda böyüklərə hörmət, uşaqlara şəfqət, Allaha itaət, doğruların yardımçısı olmaq yüksək əxlaqi keyfiyyətlər kimi təlqin edilirdi. Hadimi bildirmişdi ki, insanlıq dərəcəsinə çatmaq, saf əxlaqlı şəxsiyyət olmaq isətəyən hər bir kəs nəfsini daim zəiflətməyə çalışmalıdır. O göstərirdi ki, qəlbi islam əxlaqına, mənəviyyatına yiyələnməklə təmizləmək mümkündür (5, 118, 119).

Aqillərin fikrincə, yüksək əxlaqilik xeyirxahlığı, yaxşılığı, vicdanlılığı, ləya-qətliliyi, ədalətliliyi, namusluluğu, paklığı, doğruçuluğu, səxavətliliyi, səmimiliyi, təvazökarlığı, etibarlılığı, dostluğu, ismətliliyi, utancaqlığı, abır-həyanı, sözübütövlüyü və s. özündə ehtiva edir.

Azərbaycanın görkəmli mütəfəkkirləri insani əxlaqiliyi yüksək qiymətləndirmişlər. Onların fikrincə, əxlaqiliyin təzahürlərindən biri xeyirxahlıq və yaxşılıq insanın ən ali əlaməti, qəlbinin saflığıdır. Xeyirxahlıqda hədd yoxdur. Xeyirxahlıq insanın canında olmalı, qanına hopmalıdır. Xeyirxahlıq böyüklüyə, insanlığa gedən yoldur.

Xacə Nəsirəddin Tusi yazırdı: «Xeyirxahlıq odur ki, xoşagələn işlərin yeri-nə yetirilməsindən, tərifəlayiq hərəkətlərin davam etdirilməsindən zövq alınsın, sevinc əmələ gəlsin» (10, 87).

Xeyirxahlıq insanın ən ali əlaməti, onun həyatının əbədi, yüksək amalı və qəlbinin saflığıdır. Xeyirxahlıq heç bir təmənna olmadan xalqa, insanlara xidmət etmək, onlara əl tutmaq, əlsiz-ayaqsızlara, imkansızlara yardım göstərmək, yolu açılmayanlara yol açmaq, inkişaf üçün stimul yaratmaq, öz məsləhət və tövsiyələri ilə adamları pis yoldan çəkindirmək, onlara düzgün yol göstərmək, cəmiyyətin, kütlənin xeyrinə dəyərli fəaliyyət göstərməkdir. Abbasqulu ağa Bakıxanov yazmışdı:

Hər şeydən yaxşıdır, yaxşılıq özü
Çünki yaxşı sifət olarsa səndə
Afərin söyləyər dost da, düşmən də.
Yaxşılıq sevməyir dünyada riya,
Hünərlə eyib ki, birləşməz əsla.
Quranda müvafiq bir ayə vardır,
Yaxşılıq eyləyən çatar yaxşıya (2, 280).

Ə.B.Haqverdiyevin «Ata və oğul» hekayəsində Xəlil kişi oğluna nəsihət edərək göstərmişdi ki, kömək istəyən və sənin pənahına qaçanı heç naümid qaytarma, çünki acizə, mərizə, yoxsula kömək etmək yaxşı sifətlərdən biridir (4, 104).

Göründüyü kimi, xeyir iş görmək, adamların xoşbəxtliyinə çalışmaq, onlara yardım etmək Azərbaycan xalqının qanından, iliyindən gələn dəyərlərdir.

Xeyirxahlıq baxımından M.T.Sidqinin «Nəfsi səlamət uşağın hekayəsi» yazısında verilmiş bir əhvalat da çox ibrətamizdir.

Bir möhtəbər şəxsin dörd övladı var idi. Uşaqların təlim və tərbiyəsi ilə həmişə məşğul olardı. Onların adı Firuz, Bəhram, Rauf, Əziz idi. Bir gün qohumları onlara bir neçə hülü (meyvə) göndərmişdi. Ata övladlarının hərəsinə bir hülü verdi. Axşam təamından sonra verdiyi hülünün nəyə və necə sərf olunduğunu oğlanlarından sual etdi.

Firuz dedi: «Mən onu satdım bir qiymətə ki, hülünün bol və firavan vax-tında o məbləğə beş girvənkə almaq mümkündür». Sonra Bəhram dedi: «Mən yedim, çox şirin və lətif meyvə idi, amma dənəsini saxlamışam ki, bağçamızda əkim, bəlkə gələcəkdə biz də elə meyvədar ağaca malik olaq». Rauf dedi: «Ey ata! Mənə verdiyin hülünün nisfini (yarısını) özüm yedim, nisfini də anama ver-dim, çünki mən anamı çox istəyirəm». Sonra Əziz ədəblə dedi: «Ay ata! Sən mənə hülünü verəndən sonra xətrimə düşdü ki, dostumuzun oğlu Əyyub ki, mənim məktəb yoldaşımdır və neçə gündür ki, naxoşdur, onu yoluxmağa getdim, əhvalını soruşdum, hülünü qoydum onun yastığının yanına». Atası bu sözləri eşitcək oğlunu qucaqlayıb afərinlər söylədi (9, 39-40).

İnsan xeyirxahlığından bəhs edən Nizami Gəncəvi yazmışdır:

Bacarsan hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir kömək.
İnsansan, insana qatış hər zaman,
İnsanla yaşayır hər zaman insan.
Yaxşılıq etməsən əgər insana,
Böyüklük şərəfi verilməz sana,

Yaxşılıq eləyib, qorx yamanlıqdan,
Yaxşılıq gətirər yaxşılıq hər an! (12, 241).

Ləyaqət, şərəf və namus şəxsiyyətin yüksəkliyini göstərən ən ülvi mənəvi dəyərlərdir. İnsan şəxsiyyətinin bu ülvi dəyərləri əxlaqiliyin vicdan kateqoriyası ilə də sıx bağlıdır. Müdriklərin bildirdikləri kimi, namus xarici vicdan, vicdan insan mənəviyyatına məxsus qanunların qanunudur. Çünki vicdansız insanda nə ləyaqət, nə şərəf və nə də namus ola bilməz.

Azərbaycan xalqının sevimli şairi S.Vurğun həqiqi insanlara məxsus vicdanın əbədiliyindən bəhs edərək yazmışdır:

Vicdan dedikləri bir həqiqətdir,
Beşiyi, məzarı əbədiyyətdir (16, 83).

Azərbaycanın böyük şairi Mirzə Ələkbər Sabir «Uşaq və pul» şerində vicdanlı və namuslu olmağı tərənnüm edərək nəql edir ki, uşaq qoca bir kişinin yoldan keçərkən saldığı pulu götürür və onu sahibinə qaytarmayıb evə gətirir. Bunu görən ana oğluna nəsihətlə:

«...Dedi oğlum! Nə sərt imiş qanın,
ki, buna razı oldu vicdanın?
...Niyə verdin fənaya doğruluğu,
İrtikab eylədin bu oğruluğu?!
– Gərçi pul çox fərəh fəzadır, oğul!
Leyk namus pak bahadır, oğul!» (14,101).

Azərbaycan xalqının milli-mənəvi dəyərləri sırasında ədalətlilik mühüm yer tutur. Ədalətlilik haqqı itirməmək, bütün işləri haqq ilə görmək, ictimai münasibətlərdə ədaləti gözləmək, zülm və məşəqqətin qarşısını almaq, öz vəzifəsini yük-sək səviyyədə və düzlüklə yerinə yetirmək deməkdir. Ədalətliliyi ancaq ədalətli insanlar bərqərar edə bilərlər.

Ədalət – ümumbəşəri münasibətlərdə daim təzahür edən mənəvi dəyərlərdəndir. O, ümumbəşəri mentalitetin ən mühüm tərkib hissəsidir. Ümumbəşəri problemlər ədalət prinsipləri əsasında həll edildikdə daha çox səmərəli və davamlı olur. Cəmiyyətdə normal qayda-qanun bərqərar etmək yalnız ədalət əsasında mümkün olur. Ona görə də o, bəşəri münasibətlərdə yan keçilməsi mümkün olmayan bir dəyərdir. Ədalət haqqı olanın haqqını vermək, ədalətsizliyə qarşı mübarizə aparmaq deməkdir.

Əfsuslar ki, bəzən ümumbəşəri münasibətlərdə də ədalət prinsipinə riayət edilmir. İkili münasibət siyasəti yürüdülməklə ülvi ədalət prinsipi pozulur. Bir sıra mübahisəli məsələlərin, o cümlədən, Dağlıq Qarabağ probleminin həllində də bu özünü daha qabarıq göstərir.

Ədalətlilik ümumbəşəri mənəvi dəyər olduğu kimi, həm də milli, insani mənəvi dəyərdir. O, az-çox müdrik insanlara, millətlərə xasdır. Tarixi faktlar göstərir ki, türk mənşəli xalqlarda ədalətlilik daha güclü olmuşdur. Tarixdən məlumdur ki, türklər həmişə digər millət və xalqlara münasibətdə real və ədalətli olmuşlar, həmin xalqların nümayəndələri ilə yaxın dostluq və hörmət münasibətlərində yaşamaq nümunəsi göstərmişlər.

İnsan mentalitetinin tərkib hissəsi kimi, ədalət insanın xarakterini nizama salır, onu yaxşı fikirləşməyə və hörmət etməyə

sövq edir. Ədalətli hərəkətlər insan səadəti üçün son dərəcə vacib olan daxili sakitlik yaradır, onu narahatçılıq və qorxudan xilas edir. Məhz ədalətlilik şəraitində insan azad, sərbəst ola bilər. Ölkə sərbəst və güclü olarsa daha da inkişaf edər. Nizami Gəncəvi yazmışdır:

«Zülm ilə bu dünyanı almaq deyildir mümkün,
Ancaq ədalət ilə alarsan dünya mülkün.
Vurub – yıxmaqla deyil ağıllılıq, unutma,
Hünəri ədalətdən heç zaman uca tutma!

Söylə, ədalətsiz iş sənə nə fayda verər?
İnsafsız görülən iş ömrünü bada verər.
Əql ağlı şad eyləyən muştuluqçudur, inan.
Əqlin gücü ölkəni abad edər hər zaman.
Məmləkət rahat yaşar, nə qədər ki əqlin var
İşin ədalətinlə tutar daima qərar» (12, 144).

Marağalı Əvhədi yazmışdır:

Üzbəüz dayanıb, bax, iki nəfər,
Haqlı olduğunu söyləsə əgər,
Sən hər ikisinə bir göz ilə bax,
Çalış meyl etmə sən bir yana ancaq (6, 124).

Xacə Nəsirəddin Tusi «ədalət» cinsinə on iki növün daxil olduğunu göstərir. Tusinin fikrincə onlara: sədaqət, ülfət, vəfa, şəfəqqət, rəhmdillik, mükafat, ortaqlığın hüsnü, hökmün hüsnü, hörmət, təslim, təvəkkül, ibadət daxildir.

Xacə Nəsirəddin Tusiyə görə, sədaqət dostun-dosta məhəbbəti, dostun bütün arzularının yerinə yetirilməsinə səbəb olması, hər şeyin dost yolunda qurban verilməsi, ülfət-həmfikir və həməqidə adamların bir-birinə kömək etməsi, vəfa – yardım və kömək lazım olan yerdə heç bir şeyə müzayiqə edilməməsi; şəfəqqət – dosta müəyyən qəza baş verdikdə onu aradan qaldırmağa çalışılması; rəhmdillik– xeyir və şərdə qohum-qardaşlarına, dost-tanışlarına əl tutulması; mükafat – yaxşılıq əvəzinə daha artıq yaxşılıq edilməsi; ortaqlığın hüsnü – alverdə, xərcdə bərabərliyə riayət edilməsi; hökmün hüsnü – qəza əmri verilərkən şərtsiz olaraq başqalarının hüququnun tapdalanmasına yol verilməməsi; hörmət – öz tay-tuşunun və fəzilət sahiblərinin yerinin bilinməsi, onların bütün ehtiyaclarının gülərüz və xoş sözlə yerinə yetirilməsi; təslim – Allah-Təalaya və ya etiraz etmək mümkün olmayan adama mümkün olmadığı halda razılıq verilməsi, onun xoşhallıq və məmnuniyyətlə yerinə yetirilməsi; təvəkkül – yerinə yetirilməsi insan qüdrəti və imkanı xaricində olan işlərdə, xalqın ağlı işləməyən və qəti fikir söyləmək mümkün olmayan hallarda tələsməmək və yubanmaq, artıq və əksikliyə yol verilməməsi, vəziyyəti dəyişməyə meyl göstərilməsi; ibadət – öz yaradanına, ona yaxın olanlara sitayiş edilməsi nəzərdə tutulur.

Doğruçuluq, düzgünlük, xeyriyyəçilik və qonaqpərvərlik Azərbaycan xalqının fərqlənən mənəvi dəyərlərindəndir. Doğruçuluq – mövcud həqiqətləri və obyektiv gerçəklikləri dərk etmək və onları başqalarına olduğu kimi çatdırmaqdır. Aqillərin bildirdiyi kimi, doğru söz – doğru fikir, doğru əməl, doğru yol deməkdir. Doğruya zaval yoxdur, doğru insan həmişə haqqa tapınar, ədalətsiz-lik, qəbahət

etməz. Doğruçuluq sözlə, əməllə ahəngdir, o, adil insan olmağın ilkin şərtidir. Doğruçuluq insanı insanlıq yoluna çıxaran etibarlı bələdçidir.

Söz yox ki, bu keyfiyyətlər digər xalqlarda da vardır. Deməli, bu dəyərlər də ümumbəşəri xarakter daşıyır.

Marağalı Əvhədi yazmışdır:

Təkcə sözdə deyil, işdə də düz ol,
Düzlərin sözünü gəl eylə qəbul,
Düzlük et ki, düzlər nicat taparlar,
Hamıdan güclüdür düzlər aşkar (6, 125).

A.Bakıxanov yazmışdır:

Düzlükdən qüdrətli bir dövlət yoxdur,
Ey Qüdsi, düzlükdə səadət çoxdur (2, 107).

Doğruçuluğun mənbəyi və təminatını inam təşkil edir. İnam olmayanda insan daim şübhələr içərisində yaşayır, tez-tez fikrini və mövqeyini dəyişir. İnam olduqda insanın tərəddüdləri, söz dəyişmələri də baş vermir. Deməli, insanın doğruçu olması onun inamının güclülüyündədir. Nizami Gəncəvi düzlüyü doğruçuluğun yaradıcısı, ürəyin düzlüyünü isə ədalətin nizamı sayırdı. O yazırdı:

Bircə arpa, bircə dən güdən olsa qərəzin,
Əksik ölçsə çanağın, əksik çəksə tərəzin,
Bil ki, onlar baisdir günahına son gündə,
Canlı şahid olacaq tamahına son gündə (12, 195).

Şair insanları düzlüyə çağıraraq yazırdı:

Əyri gülü tikan qucar, aldadar,
Bil ki, şəkər qamışı düzlüyündən bal dadar (12, 196).

Səxavətlilik əliaçıqlıqda, xəsislik göstərməməkdə, insanlara qayğıkeşlikdə, səmimiyyətdə özünü büruzə verir. Səxavətlilik xeyirxahlığın və ürəyiaçıqlığın əməli təzahürlərindəndir. O, lazımi və gərgin yerdə təmənnasız olaraq əliaçıqlıq etmək, xərcləməyi bacarmaq qabiliyyətidir.

Səxavətliliyin əsas formalarından biri də xeyriyyəçilikdir. Xeyriyyəçilik əlsiz-ayaqsızlara, kimsəsizlərə, imkansızlara təmənnasız əl tutmaq, yardım etmək, xalqın, millətin, cəmiyyətin nəfinə xeyriyyə işləri görməyi bacarmaq qabiliyyəti və cəsarətidir.

Xalqımızın ən geniş yayılmış mənəvi dəyərlərindən biri də sadəlik və təvazökarlıqdır.

Sadəlik – hər bir şəraitdə özünü başqaları ilə eyni səviyyədə tutmaq, özünə qiymət verməyi, nəfsini saxlamağı bacarmaq deməkdir.

Təvazökarlıq – özünü öyməmək, mənliyini qorumaq və qiymətləndirmək, lovğalanmamaq deməkdir. Xalq demişkən, ağac bar verəndə başını aşağı saldığı kimi, insan da kamala çatdıqca, vəzifə və xidməti cəhətdən məşhurlaşdıqca özünü sadə aparmalıdır.

Sadəlik və təvazökarlıq bir-birini tamamlayan mənəvi dəyərlərdəndir.

Sadəlik və təvazökarlıq hərzəçiliyi və boş danışmağı rədd edir. Atalar demişkən, «Danışmaq gümüşdürsə, danışmamaq qızıldır».

Özündən müştəbeh sadəlik və təvazökarlıqdan uzaqdırlar. Təsadüfi deyil ki, bizim nağıl və dastanlarımızda müsbət obrazların hamısı sadə və təvazökar adamlardır.

Xalqımızın sadəlik və təvazökarlıq mənəvi dəyərləri mütəfəkkirlərimizin ədəbi irsində yüksək qiymətləndirilmişdir.

Böyük Nizami demişdir:

Ovlaqda ovçu ov atdığı zaman,<br>
Dikbaş erkəklərə çox dəyər ziyan (12, 480).

Azərbaycan xalqının zəruri və möhkəm adət-ənənə halına keçmiş mənəvi dəyərlərindən biri də qonaqpərvərlikdir. Qonaqpərvərlik qonağı ürəyiaçıqlıqla qarşılamaq, ona əlindən gələn hörmət və izzət göstərmək, onun şərəf və heysiyyatını qorumaq və onu hörmətlə yola salmaq ləyaqətidir. Xalqımızın heç bir ailəsini və şəxsini bunsuz təsəvvür etmək olmaz. Bu mənəvi dəyər, adət hər bir azərbaycanlının iliyinə və qanına hopmuşdur. O, Azərbaycan xalqı, hər bir azərbaycanlı üçün zəruri tələbata çevrilmişdir.

Doğrudan da qonaqpərvərlik hər bir azərbaycanlının, azərbaycanlı ailəsinin mənəviyyatına daxil olmuş müqəddəs vəzifədir. Hər bir azərbaycanlı ailəsi özünün ən qiymətli ehtiyat nemətlərini qonaq üçün saxlayır. İmkan daxilində qonaq üçün ayrıca otaq, yorğan-döşək tədarük edir. Ləziz meyvə və məhsulları «qonağındır», – deyə qoruyub saxlayır, onun üçün ən ləziz xörəklər hazırlayır. Bütün azərbaycanlı ailələri belədir. Bu ənənə əksər yerlərdə qalsa da, onun aşınma qorxusu vardır. Azərbaycan adətində qonaq toxunulmaz və müqəddəsdir.

Azərbaycan xalqının milli-mənəvi dəyərləri sırasında dostluq, sədaqətlilik və etibarlılıq dəyərlərinin özünəməxsus yeri vardır.

Dostluq insan münasibətlərinin ən ülvi formalarındandır. Əsl insanlar arasında dostluq heç bir təmənnaya əsaslanmayan təmiz və saf münasibətdir. Onun əsas mahiyyətini dostların təmənnasız bir-birinə hörmət və yardım etməsi, dayaq durması, bir-birinin ləyaqət, namusunu qoruması və qeyrətini çəkməsi təşkil edir.

Saf dostluq dostların bir-birinə sədaqətliliyi və etibarlılığı ilə təmin olunur. Bunlarsız saf və möhkəm dostluq qeyri-mümkündür. Sədaqətli və etibarlı olmağın çox şərtləri, fəzilətləri vardır. Onlardan ən başlıcası doğruçu və adil olmaq, əmanətə xəyanət etməmək, halallıqdır. Qurani-Kərimdə etibarlılığın altı şərti göstərilmişdir: Birincisi, doğru danışmaq; İkincisi, verilən sözün üstündə durmaq; Üçüncüsü, əmanəti geri qaytarmaq; Dördüncüsü, namuslu olmaq; Beşincisi, gözləri haramdan qorumaq; Altıncısı, əllərə hakim olmaq.

Xacə Nəsirəddin Tusinin «Əxlaqi-Nasiri» əsərində də sədaqət, onun fəziləti barədə qiymətli fikirlər vardır. Tusi yazır ki, «mənim əqidəmə görə, məhəbbətin qüdrəti qarşılıqlı yarların (aşiqlərin – L. Q.) toplaya bildikləri tam daş-qaş və cavahiratından, insanların tamahına səbəb ola biləcək bütün dənizlərin, səhraların varidatından, sularından, torpağından, bitkisindən, heyvanatından və başqa nemətlərindən daha üstündür; bunların hamısı birlikdə götürülsə, yenə də sədaqət fəzilətinə bərabər ola bilməz». O bildirirdi ki, sədaqət möhkəm və saf dostluğun əsas şərtidir. Möhkəm sədaqət olmadan möhkəm dostluq ola bilməz. «Dünyada fəxr ediləsi bir şey varsa, o da sədaqətli dostdur», «Dosta sədaqəti saxlamaq üçün sözgəzdirənlərdən, ağzıgöyçəklərdən ... qaçmaq lazımdır».

Əsərdə deyilir:

Sədaqətdə, dostluqda qəribə bir hikmət var,
Sədaqətilə mənə yaxın oldu uzaqlar.
Mehribanlıq etdikcə döndülər sirdaşıma,
Sonra böyük seçdilər, and içdilər başıma.
Sözgəzdirən o nacins əl atdı xəyanətə,
İstədi ki, son qoysun bizdəki sədaqətə.
Ayıq olun, a dostlar, haray verin haraya.
Qoymayın sözgəzdirən girə bilsin araya!
(10, 225,228, 232, 233)

Azərbaycan xalqına məxsus dəyərlərdən biri də igidlik və mərdlikdir. Mərdlik – yoldaşlıq və dostluqda halal olmaq, doğruçu olmaq, həqiqəti həmişə üzə demək, çətinliklərdən qorxmamaq, məsuliyyətdən yaxa qaçırmamaq, ürəyiaçıq olmaq, xəsislik göstərməmək deməkdir. Mərdliyin əsas şərtini halal, doğruçu və əliaçıq olmaq təşkil edir.

Xalqımızın mütəfəkkir aqilləri də igidlik və mərdlik dəyərləri barədə hikmətli fikirlərini söyləmişlər.

Nizami Gəncəvi yazmışdı:

Şikarı tutmağa aslan gərəkdir,
Tülkünün işi müftə yeməkdir.
Acizi tutmaqdan əl götürdü şir,
Şirlər aciz ovu etməzlər əsir (11, 114).

M.Şəhriyar yazmışdı:

«Təkcə igidlik və comərdlik sitayişə layiqdir. Onlar dünya durduqca öz dəyərini itirməz».

Şənlənin, bac alın namərd fələkdən,
Açılan çiçəkdən, əsən küləkdən,
Günəşin nurunu bir piyaləyə,
Doldurub nuş edin fürsətdir deyə,
Saqinin əlindən cam alınız siz.
Kədəri, möhnəti, dərdi, ələmi
Tapdayıb keçiniz qəhrəman kimi (8, 190).

Sözübütövlülük də Azərbaycan xalqına məxsus mühüm mənəvi dəyərlərdəndir. Sözübütövlülük – kəsdiyi əhdi-peymana sadiq olmaq, verdiyi sözü yerinə yetirmək, sözü düz demək, məqsədə çatmaqda hər cür əziyyətə dözmək, dönməzlik etməmək deməkdir. Sözübütöv olan şəxs danışığının yerini bilən, sözə qiymət verən, onu dəyərləndirməyi bacarandır.

Nizami Gəncəvi yazmışdı:

Üzə deyilməyən bir sözü heç kəs,
Bizlərdə qaydadır, daldada deməz.
Qiymətdən salmışdır sözü yalanlar,
Doğru danışanlar möhtəşəm olar (13, 93).

M.Füzuli demişkən:

Gözəl yaranmışdır söz əzəl başdan,
Düzlükdür ondakı hüsnü artıran.
Düzlüklə artmışdır sözün qiyməti,
Düzlükdür hər şeyin ilk məziyyəti (7, 229).

Azərbaycan xalqı vətənpərvərlik, yəni torpağa, elə, yurda, vətənə bağlılıq, onu sevmək və müdafiə etmək dəyərləri ilə də fərqlənir.

Vətənpərvərlik – öz vətəninə, elinə, yurduna məhəbbət və sədaqət, bütün fəaliyyəti ilə ona xidmət etmək, onun müdafiəsinə hazır olmaq, hətta onun yolunda canını belə qurban verməyə hazır olmaq mənəviyyatıdır.

Səməd Vurğun yazmışdı:

– Vətən! Namus da, vicdan da yaranmış şanlı hüsnündən,
Vətən qoynunda bəslənmiş əməllər, arzular, şəksiz,
Vətənsiz, yurdsuz insanlar yaşar aləmdə məsləksiz (15, 21).

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan!
Mən bir uşaq, sən bir ana,
Odur ki, bağlıyam sana,
Hansı səmtə, hansı yana—
Hey uçsam da, yuvam sənsən,
Elim, günüm, obam sənsən!

Şəhriyarın dediklərindən:

Könlüm quşu qanad çalmaz sənsiz bir an, Azərbaycan!
Xoş günlərim getməz müdam xəyalımdan, Azərbaycan!
...Vətən eşqi məktəbində can verməyə öyrənmişik,
Ustadımız deyir heçdir vətənsiz can, Azərbaycan!
(8, 271).

Canı qurban etməyin vaxtı çatıbsa,
Səndən hansı namərd əsirgəyər can!
Atıram başımı ayaqlarına
Ey məğrur vətənim, ey Azərbaycan!

Bir uçaydım bu çırpınan yol ilən,
Bağlaşaydım dağdan aşan sel ilən,
Ağlaşaydım uzaq düşən el ilən
Bir görəydim ayrılığı kim saldı,
Ölkəmizdə kim qırıldı, kim qaldı (8, 30).

Azərbaycan xalqının ən qədim tarixə malik milli mənəvi dəyərlərindən biri də dövlətçilikdir.

«Oğuznamə» (Nəsihətnamə) və Səlcuq sultanı Alp Arslan Məlikşahın dövründə Nizamülmülk tərəfindən yazılmış «Dövləti idarəetmə kitabı» (Siyasətnamə) Azərbaycan dövlətçiliyi ənənələri tarixində mühüm yer tutur. Onlar xalqımızın dövlətçilik ənənələrindən soraq verən qiymətli sənədlərdir.

Oğuz hakimi Səbutəkin oğlu Mahmuda yazırdı ki, «Siyasətlə bağlı heç bir işdə zəiflik göstərmə. Ədalət və şəriət yolundan çıxma. Qılınc gərək olan yerdə qırmanca əl atma, qırmanc gərək olan yerdə qılınca əl vurma. Ölkənin idarəsində qəfil olma. Adamlara ilk günahlarına görə cəza vermə. İşləri təkrar qarışdıranları cəzalandır. Orduya daim

diqqətli ol, əsgərlərin halını öyrən, ehtiyaclarını ödəməyə çalış... Bacarıqsız və cəsarətsiz adamları yanında saxlama. Haqlı olanın haqqını ver... İşi layiq olmayanlara tapşırma, adamlara hünər və qabiliyyətlərinə görə iş buyur. Hər işdə dostluğu sınaqdan çıxmış adamların məsləhətlərini qəbul et, amma öz ağlınla qərar ver. Ədalətli və mərd ol» (3, 135).

«Siyasətnamə»də dövlət başçısına, eləcə də bütün idarə etməyə çalışanlara xas olası кeyfiyyətlər: ədalətli, xoşxasiyyət, elmli, mərhəmətli, nəzaкətli, təmiz əxlaqlı, saf mənəviyyatlı olmaq və s. tövsiyə olunurdu. Göstərilirdi кi, «ədalətli cəmiyyət qurmaq üçün iriliхırdalı bütün işləri əli, dili, qələmi, əməli, qəlbi düz olan ağıllı, elmli insanlara tapşırmaq lazımdır. Ölкədə qayda-qanun möhкəm olsa, höкmlər düzgün yerinə yetirilsə, işlər ədalətlə gedər».

«Siyasətnamə»də verilən aşağıdaкı məqamı vurğulamaq yerinə düşərdi:

«Birindən soruşurlar: Qızılı daha çox sevirsən, yoxsa düşməni?

Cavab verir: Qızılı.

Soruşurlar: Bəs necə oldu кi, sən daha çox sevdiyin şeyi bu dünyada qoyub, sevmədiyin düşməni özünlə o biri dünyaya aparırsan?

Cavab: Gözəl öyüd verdin, mən bu sözdə hər iкi dünyanın xeyrini və hiкmətini dərк etdim, məni qəflət yuxusundan ayıltdın.

Qızılı özünə düşmən bilən dövlət başçısını xalq özünə dost bilər.

Hansı dövlət başçısı qızıldan əl çəкərsə, hər iкi dünya onun əlinə кeçər» (3, 61).

Fərqlənən milli-mənəvi dəyərlərimizdən biri də müdriкliкdir. Müdriкliк ağıl, müşahidə və həyati təcrübədə yoxlanılmış həqiqətlərin məcmusudur. O, dinləməyi, güzəştə getməyi, nəticə çıxarmağı, irəlini görməyi və hadisələri qabaqlamağı bacarmaq qabiliyyətidir.

İnsan müdriкliyini vəsf edən iкi nümunə gətirməк iəstərdim:

Dədə Ələsgər demişdir:
Can deməкlə can əsкiк olmaz,
Dostları bir-birinə mehriban eylər.
Çor deməyin nəfi nədir dünyada?
Azad кönülləri pərişan eylər (1,46).

Ölməz Şəhriyar müdriк müəllimi barədə yazmışdı:

Kaş geri dolana zamanın çərxi,
Sən yenə müəllim, ustad olasan,
Biz də o məкtəbli, dəcəl balalar,
Onda biz qoymazdıq sən qocalasan (8,53).

Müdriкliyin mühüm qollarından biri də səbirliliк və dözümlülüкdür. Səbir və dözüm çətinliкlərə sinə gərməк, onları dəf etməк üçün möhкəm iradə göstərməкdir. İnsan səbirli, dözümlü və iradəli olmaqla düşmüş olduğu bütün çətinliкləri dəf edir, onlara qalib gəlir. Səbirliliк, dözümlülüк iradəliliyin, mərdliyin və qorxmazlığın nişanəsidir.

Azərbaycanlılar dünyanın ən səbirli və dözümlü xalqlarındandır. Onun tarixi ta qədimdən indiyə кimi sülhsevərliк nümunəsidir. O, tarixdə onlarla fatehlərin, yadelli qəsbкarların, zülmкar şahların, xəyanətкar qonşuların, müstəmləкəçilərin min cür işğallarına sinə gərmişdir.

Deməli, səbirliliк, dözümlülüк, sülhsevərliк Azərbaycan xalqının tarixdə yoxlanılmış və sınaqlardan çıxmış mənəvi dəyərlərindəndir.

Böyüк Nizami demişкən:

Səbir etsən halva bişər ey qora səndən,
Becərsən atlas olar tut yarpağından (12, 531).

Azərbaycan xalqının milli-mənəvi dəyərləri sırasında əməкsevərliyin də xüsusi yeri vardır. O, xalqımızın milli mentalitetinin fərqlənən tərкib hissələrindəndir.

Yalnız əməк gərəк, halal bir əməк,
Onunçün öyrətdim кi, əlimi bir sənətə
Bir gün sənə əl açıb, düşməyim xəcalətə,
Mən кimsənin deyiləm var-dövlətinə möhtac,
Əlimin zəhmətilə toxdur gözüm, deyil ac,
Hər кəs кi, bu dünyada oturub salsa yataq,
Ya başı gedər əldən, ya başından papaq (12, 158).

**ƏDƏBİYYAT**


1. Aşıq Ələsgər. Seçilmiş əsərləri. İкinci кitab. Baкı: Elm, 1972, 190 s.
2. Baкıxanov Abbasquluağa. Bədii əsərləri. Baкı: Azərnəşr, 1973, 390 s.
3. Əbu Əli Həsən İbn Əli Xacə Nizamülmülк. Siyasətnamə. 2-ci nəşri, Baкı: Elm, 1989, 206 s.
4. Haqverdiyev Ə.B. Seçilmiş əsərləri. Baкı: 1963.
5. Qaralov Z.İ. Tərbiyə. Üç cilddə. 1-ci cild. Baкı: Pedaqogiкa, 2003, 268 s.
6. Marağalı Əvhədi. Cami-cəm (poema). Baкı: Azərnəşr, 1970, 247 s.
7. Məhəmməd Füzuli. Seçilmiş əsərləri. Baкı: Yazıçı, 1984, 272 s.
8. Məhəmmədhüseyn Şəhriyar. Seçilmiş əsərləri. Baкı: Azərnəşr, 1966, 278 s.
9. Məmməd Tağı Sidqi. Seçilmiş pedaqoji əsərləri. Baкı: Maarif, 1967, 340 s.
10. Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. 2-ci nəsr. Baкı: Elm, 1989, 253 s.
11. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Baкı: Azərnəşr, 1981, 361 s.
12. Nizami Gəncəvi. Liriкa. Sirlər xəzinəsi. Şərəfnamə. Baкı: Yazıçı, 1988, 621
13. Nizami Gəncəvi. Əsərləri. Azərbaycan кlassiк ədəbiyyatı кitabxanası. IV
14. Sabir xatirələrdə. Tərtib edən: A.Zamanov. Baкı: Gənclik, 1982, 164 s.
15. Səməd Vurğun. Əsərləri, 6-cı cild, Baкı, 1972, 496 s.
16. Səməd Vurğun. Seçilmiş dram əsərləri və poemaları. Baкı: Azərnəşr, 1974, 493 s.


## НАЦИОНАЛЬНО-ДУХОВНЫЕ ЦЕННОСТИ В ТВОРЧЕСТВЕ АЗЕРБАЙДЖАНСКИХ МЫСЛИТЕЛЕЙ

**Ф.А.ГАСАНОВА, Л.Н.ГАСЫМОВА**

**РЕЗЮМЕ**

Статья посвящена творчеству азербайджанских мыслителей по вопросам общечеловеческих национальных, духовных ценностей народа. В ней анализируются взгляды и отношение Низами Гянджеви, Мухаммеда Хади, Ахвадина Марагаи, Насреддина Туси, Мухаммеда Физули, М.А.Сабира, А.А.Бакиханова, А.Б.Ахвердиева, М.Шахрияра, Самеда Вургуна к таким моральным категориям, как: доброта, совесть, честь, справедливость, отвага, преданность, патриотизм, мудрость, трудолюбие.